Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 23 ” aprel tarixli
130 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və çıxarılması**

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 21.4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və dövlət reyestrindən çıxarılması ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Bu Qayda ilə tənzimlənməyən məsələlər Qanuna, “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyaya (bundan sonra - Konvensiya), həmçinin Konvensiyaya 7 nömrəli Əlavə - “Hava gəmilərinin milli və qeydiyyat nişanları” ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə, o cümlədən “Doc 10142, hava gəmilərinin qeydiyyatı və qeydiyyatının ləğvi barədə Təlimat”a uyğun olaraq həyata keçirilir.

1.3. Hava gəmilərinin təsnifatı bu Qaydanın 1 nömrəli əlavəsinə uyğun olaraq müəyyən edilir.

1.4. Bu Qaydanın müddəaları aşağıdakı hava gəmiləri istisna olmaqla, digər hava gəmilərinə şamil edilir:

1.4.1. yalnız meteoroloji məqsədlər üçün istifadə olunan pilotlu meteoroloji aerostatlar;

1.4.2. mülki pilotsuz uçuş aparatları.

1.5. Hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması aşağıdakı qurumlar tərəfindən həyata keçirilir:

1.5.1. dövlət aviasiyasına aid hava gəmilərinə münasibətdə - Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (bundan sonra - Nazirlik);

1.5.2. mülki aviasiyaya aid hava gəmilərinə münasibətdə - Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra - Agentlik);

1.5.3. mülki eksperimental aviasiyaya aid hava gəmiləri üzrə - Agentlik, dövlət eksperimental aviasiyasına aid hava gəmiləri üzrə - Nazirlik.

1.6. Bu Qaydada istifadə olunan anlayışlar Qanunla, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və bu Qaydanın 1.2-ci bəndində nəzərdə

tutulmuş digər sənədlərlə Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

1.7. Bu Qaydada nəzərdə tutulmuş tələblərin yerinə yetirilməsinə nəzarət aidiyyəti üzrə bu Qaydanın 1.5-ci bəndində nəzərdə tutulmuş qurumlar tərəfindən həyata keçirilir.

## 2. Hava gəmilərinin dövlət qeydiyyatı və dövlət uçotu

2.1. Azərbaycan Respublikasına mənsub hava gəmiləri dövlət qeydiyyatına, xarici dövlətə mənsub hava gəmiləri dövlət uçotuna alınmalıdır.

2.2. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hava gəmisi Azərbaycan Respublikasının milli mənsubiyyətini daşıyır.

2.3. Hava gəmisi eyni vaxtda yalnız bir dövlətdə qeydiyyatda ola bilər və yalnız bir qeydiyyat sertifikatına malik ola bilər.

2.4. Azərbaycan Respublikasında istismar edilən və xarici dövlətdə qeydiyyatda olan, habelə uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsi barədə qeydiyyat dövləti ilə istismarçı dövlət arasında bağlanılmış müqaviləyə əsasən istismarçı dövləti Azərbaycan Respublikası sayılan hava gəmiləri Azərbaycan Respublikasında dövlət uçotuna alınmalıdır.

## 3. Qeydiyyat sertifikatının verilməsi

3.1. Qanunun 21.3-cü maddəsinə uyğun olaraq Agentlik dövlət qeydiyyatına alınmış mülki hava gəmilərinə bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən olunmuş formada qeydiyyat sertifikatı verir və onları mülki hava gəmilərinin dövlət reyestrinə daxil edir.

3.2. Mülki hava gəmiləri istehsal edildikdən, barəsində əqd bağlanıldıqdan və ya üzərində hüquqlar məhdudlaşdırıldıqdan sonra 5 (beş) iş günü müddətində mülki hava gəmiləri üzərində hüquqların qeydiyyatı ilə bağlı Agentliyə ərizə ilə müraciət olunur.

3.3. Mülki hava gəmiləri aşağıdakı hallarda Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınır:

3.3.1. hava gəmisi Azərbaycan Respublikasının dövlət və ya bələdiyyə mülkiyyətində, Azərbaycan Respublikası vətəndaşlarının və ya Azərbaycan Respublikasında qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış hüquqi şəxslərin mülkiyyətində olduqda;

3.3.2. hava gəmisi xarici dövlətdə qeydiyyatda olmadıqda;

3.3.3. hava gəmisinin dizayn dövləti tərəfindən verilmiş növ sertifikatı Agentlik tərəfindən tanınmış olduqda.

3.4. Mülki hava gəmisinin dövlət qeydiyyatına alınması üçün müraciət edən ərizəçi qismində hava gəmisinin mülkiyyətçisi və ya onun qanunla müəyyən olunmuş qaydada səlahiyyət verilmiş nümayəndəsi ola bilər.

3.5. Mülki hava gəmisinin dövlət qeydiyyatına alınması üçün ərizəçi tərəfindən Agentliyə aşağıdakı məlumatların və sənədlərin əlavə edildiyi ərizə təqdim olunur:

3.5.1. hüquqi şəxslər üçün adı, ünvanı, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının surəti, elektron ünvanı və əlaqə nömrəsi;

3.5.2. fiziki şəxslər üçün adı, atasının adı, soyadı, ünvanı, elektron ünvanı, əlaqə nömrəsi və şəxsiyyət vəsiqəsinin surəti;

3.5.3. ərizəçi hava gəmisinin mülkiyyətçisinin qanunla müəyyən olunmuş qaydada səlahiyyət verilmiş nümayəndəsi olduqda, belə səlahiyyəti təsdiq edən sənəd;

3.5.4. hava gəmisi üzərində mülkiyyət hüququnu təsdiq edən sənədin notarial surəti;

3.5.5. hava gəmisinin təsnifatı, təyinatı, istehsalçısı, növü, modeli, seriya nömrəsi, maksimal qalxma kütləsi və istehsal tarixi;

3.5.6. hava gəmisinin mühərriklərinin növü, modeli, sayı və seriya nömrələri;

3.5.7. hava gəmisindən istifadə məqsədi;

3.5.8. hava gəmisinin digər dövlətdə qeydiyyatdan çıxarılmasını və ya əvvəl heç bir dövlətdə qeydiyyatda olmamasını təsdiq edən sənəd (səlahiyyətli orqan tərəfindən verilmiş sertifikat və ya digər sənəd);

3.5.9. hava gəmisi əvvəl digər dövlətdə qeydiyyatda olduqda, əvvəlki milli mənsubiyyət və qeydiyyat nişanları;

3.5.10. hava gəmisinin əmlak qismində sığortalanmasını təsdiq edən sənəd;

3.5.11. hava gəmisi üçün qeydiyyat nişanı;

3.5.12. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun və Qanunun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər.

3.6. Bu Qaydanın 3.5-ci bəndində nəzərdə tutulmuş sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

3.7. Bu Qaydanın 3.5-ci bəndində nəzərdə tutulmuş məlumatlarda və sənədlərdə çatışmazlıqlar, o cümlədən imtina üçün əsaslar olmadıqda, ərizə və ona əlavə olunmuş sənədlərə Agentlik tərəfindən qeydiyyata alındığı tarixdən 10 (on) gün müddətində baxılaraq qeydiyyat sertifikatının verilməsi haqqında qərar qəbul edilir.

3.8. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə (bu Qaydanın 3.6-cı bəndi nəzərə alınmaqla), Agentlik tərəfindən bu barədə ərizəçiyə 3 (üç) gündən gec olmayaraq məlumat verilir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı tarixdən 10 (on) gün müddətində aradan qaldırmalıdır. Belə hallarda ərizəyə baxılması üzrə müddətin axımı dayandırılır və dayandırılmış müddət bu Qaydanın 3.7-ci bəndində nəzərdə tutulmuş müddətə daxil edilmir. Ərizəçi təqdim etdiyi sənədlərdəki çatışmazlıqları aradan qaldırdıqdan sonra müddətin axımı bərpa olunur və ərizəyə bu Qaydanın 3.7-ci bəndində nəzərdə tutulmuş qaydada baxılır. Ərizəçi çatışmazlıqları 10 (on) gün müddətində aradan qaldırmadıqda, ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 2 (iki) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

3.9. Agentlik tərəfindən bu Qaydanın 3.7-ci bəndinin tələblərinə uyğun olaraq qeydiyyat sertifikatının verilməsi haqqında qərar qəbul edildikdə 2 (iki) iş günü müddətində bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən olunmuş formada qeydiyyat

sertifikatı ilə birlikdə qərar ərizəçiyə təqdim edilir və qeydiyyat sertifikatında göstərilən məlumatlar bu Qaydanın 4-cü hissəsinə uyğun olaraq mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilir.

3.10. Ərizəçinin ərizəsi bu Qaydanın 3.3-3.5-ci bəndlərinin tələblərinə uyğun olmadıqda, həmçinin aşkar edilmiş çatışmazlıqlar bu Qaydanın 3.8-ci bəndində nəzərdə tutulmuş müddətdə aradan qaldırılmadıqda, Agentlik tərəfindən mülki hava gəmisinin dövlət qeydiyyatına alınmasından imtina edilməsi haqqında qərar qəbul olunur və 2 (iki) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

3.11. Qeydiyyat sertifikatını aldıqdan sonra bu Qaydanın 3.5-ci bəndində nəzərdə tutulmuş məlumat və sənədlərdə hər hansı bir dəyişiklik baş verdikdə, hava gəmisinin mülkiyyətçisi və ya onun qanunla müəyyən olunmuş qaydada səlahiyyət verilmiş nümayəndəsi (sertifikat sahibi fiziki şəxs olduqda qanuni vərəsəsi, hüquqi şəxs olduqda isə hüquqi varisi) tərəfindən həmin əsasların yarandığı gündən 5 (beş) gün müddətində qeydiyyat sertifikatının yenidən rəsmiləşdirilməsi üçün bu Qaydanın 3.5-ci bəndi nəzərə alınmaqla Agentliyə ərizə ilə müraciət edilməlidir. Ərizəyə qeydiyyat sertifikatının yenidən rəsmiləşdirilməsi əsaslarını təsdiq edən sənədlər əlavə olunur. Ərizəyə daxil olduğu gündən 10 (on) gün müddətində Agentlik tərəfindən baxılır, düzəlişlər edilərək yenidən rəsmiləşdirilmiş qeydiyyat sertifikatı ərizəçiyə təqdim olunur və əvvəlki sertifikat Agentliyə qaytarılır.

3.12. Qeydiyyat sertifikatı üçüncü şəxslərə ötürülə bilməz. Qeydiyyat sertifikatı yararsız vəziyyətə düşdükdə və ya itirildikdə qeydiyyat sertifikatının sahibi sözügedən sertifikatın dublikatının verilməsi üçün Agentliyə ərizə ilə müraciət edir. Agentlik tərəfindən ərizənin daxil olduğu tarixdən 5 (beş) gün müddətində qeydiyyat sertifikatının eyni hüquqi qüvvəyə malik dublikatı hazırlanaraq təqdim edilir. Qeydiyyat sertifikatının dublikatının yuxarı sağ hissəsində Azərbaycan və ingilis dillərində “Dublikat” sözü və verilmə tarixi qeyd edilir.

3.13. Mülki eksperimental aviasiyaya aid hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, o cümlədən dövlət reyestrinə daxil edilməsi və çıxarılması bu Qaydanın 3-6-cı hissələrinə uyğun olaraq Agentlik tərəfindən həyata keçirilir.

## 4. Mülki hava gəmilərinin dövlət reyestri

4.1. Mülki hava gəmilərinin dövlət reyestrində aşağıdakı məlumatlar saxlanılır:

4.1.1. Agentlik tərəfindən verilmiş qeydiyyat sertifikatında və dövlət reyestrindən çıxarılma haqqında çıxarışda göstərilən məlumatlar;

4.1.2. hava gəmisinin ipotekaya qoyulması və ya digər şəkildə yüklü edilməsi haqqında məlumat;

4.1.3. qeydiyyat sertifikatının dublikatı (və ya dublikatları) barədə məlumatlar;

4.1.4. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları” ilə müəyyən edilmiş digər məlumatlar.

4.2. Mülki hava gəmisi ipoteka ilə yüklü edildikdə, habelə hava gəmisinin üzərinə həbs qoyulduqda, bu hava gəmisinin dövlət qeydiyyatına alınması və dövlət

reyestrindən çıxarılması həmin hava gəmisinin üzərinə həbs qoymuş və ya onu digər şəkildə yüklü etmiş şəxsin razılığı təqdim edilməklə həyata keçirilir.

4.3. Mülki hava gəmilərinin dövlət reyestrlərinin tərtib edilməsi və aparılması ilə bağlı digər məsələlər Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları”nın tələblərinə uyğun olaraq həyata keçirilir.

4.4. Mülki hava gəmisinin ipotekasının dövlət qeydiyyatının aparılması və ləğvi Agentlik tərəfindən həyata keçirilir və bu barədə məlumat mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilir.

4.5. Mülki hava gəmisinin ipotekasının dövlət qeydiyyatına alınması, dövlət qeydiyyatından imtina edilməsi, onun dayandırılması və digər məsələlər “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

4.6. Agentlik 5 (beş) iş günü müddətində mülki hava gəmisinin ipotekasının dövlət qeydiyyatını aparır və bu Qaydanın 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada mülki hava gəmisinin ipotekasının qeydiyyata alınması ilə əlaqədar mülki hava gəmilərinin dövlət reyestrindən çıxarışı ipoteka saxlayana təqdim edir.

4.7. İpotekanın dövlət qeydiyyatı ipoteka saxlayanın ərizəsi və ya məhkəmənin qərarı əsasında Agentlik tərəfindən ləğv edilir.

## 5. Mülki hava gəmisinin dövlət reyestrindən çıxarılması

5.1. Aşağıdakı hallarda mülki hava gəmisi dövlət reyestrindən çıxarılır və onun qeydiyyat sertifikatı hüquqi qüvvəsini itirir:

5.1.1. bu Qaydanın 3.3-cü bəndi ilə müəyyən olunmuş tələblərdən ən azı biri təmin edilmədikdə;

5.1.2. bu Qaydanın 5.3-cü bəndinə uyğun olaraq hava gəmisinin dövlət reyestrindən çıxarılması üçün Agentliyə ərizə ilə müraciət edildikdə;

5.1.3. qeydiyyat sertifikatının sahibi bu Qaydanın 3.11-ci bəndində nəzərdə tutulmuş tələbləri yerinə yetirmədikdə;

5.1.4. hava gəmisi tamamilə məhv olduqda, söküldükdə, itkin düşdükdə, oğurlandıqda və ya tamamilə istismardan çıxarıldıqda;

5.1.5. bu Qaydanın 3.11-ci bəndi istisna olmaqla, qeydiyyat sertifikatının sahibi olan fiziki şəxsin qanuni vərəsəsi olmadıqda və ya hüquqi şəxs ləğv edildikdə;

5.1.6. bu Qaydanın 8.1-ci bəndi ilə müəyyən edilmiş hallarda.

5.2. Bu Qaydanın 3.5.1-3.5.12-ci yarımbəndlərində nəzərdə tutulmuş məlumat və ya sənədlərdə sonradan düzgün olmayan hallar aşkar edildikdə, “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq inzibati icraat prosesinə başlanılır.

5.3. Mülki hava gəmisinin dövlət reyestrindən çıxarılması üçün ərizəçi qismində qeydiyyat sertifikatının sahibi və ya onun səlahiyyətli nümayəndəsi aşağıdakı məlumatların və sənədlərin əlavə olunduğu ərizəni Agentliyə təqdim etməlidir:

5.3.1. hava gəmisinin dövlət reyestrindən çıxarılması üçün səbəb;

5.3.2. hava gəmisi xarici dövlətə ixrac olunduqda, həmin dövlətin adı barədə məlumat;

5.3.3. ərizəçi hüquqi şəxs olduqda adı, ünvanı, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının surəti, elektron ünvanı və əlaqə nömrəsi;

5.3.4. ərizəçi fiziki şəxs olduqda adı, atasının adı, soyadı, ünvanı, elektron ünvanı, əlaqə nömrəsi və şəxsiyyət vəsiqəsinin surəti.

5.4. Bu Qaydanın 5.3-cü bəndində nəzərdə tutulmuş məlumatlarda və sənədlərdə çatışmazlıqlar və ya imtina üçün əsaslar olmadıqda, Agentlik tərəfindən ərizə və ona əlavə olunan sənədlərə qeydiyyata alındığı tarixdən 10 (on) gün müddətində baxılaraq mülki hava gəmisinin dövlət reyestrindən çıxarılması haqqında qərar qəbul olunur.

5.5. Bu Qaydanın 5.3-cü bəndində nəzərdə tutulmuş sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

5.6. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkarlandıqda ərizəyə baxılması bu Qaydanın 3.8-ci bəndi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

5.7. Agentlik tərəfindən hava gəmisinin dövlət reyestrindən çıxarılması haqqında qərar qəbul edildikdən 2 (iki) iş günü müddətində bu Qaydanın 4 nömrəli əlavəsi ilə müəyyən olunmuş formada dövlət reyestrindən çıxarılma haqqında çıxarışla birlikdə ərizəçiyə təqdim edilir və mülki hava gəmisinin dövlət reyestrindən çıxarılması barədə məlumat bu Qaydanın 4-cü hissəsinə uyğun olaraq mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilir.

5.8. Mülki hava gəmisinin dövlət reyestrindən çıxarılması ilə əlaqədar aşağıdakı sənədlərin əsli 3 (üç) gün müddətində Agentliyə qaytarılır:

5.8.1. qüvvədən düşmüş qeydiyyat sertifikatı;

5.8.2. uçuşa yararlılıq sertifikatı;

5.8.3. səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat;

5.8.4. radioavadanlıq sertifikatı;

5.8.5. istismar tələbləri.

5.9. Qeydiyyat sertifikatı hüquqi qüvvəsini itirdikdən sonra hava gəmisinin mülkiyyətçisi “Mode S” transponderlərinə Agentlik tərəfindən ayrılmış 24 bitlik kodların hava gəmisinin müvafiq avadanlığından silinməsini, identifikasiya lövhəsinin çıxarılmasını, habelə hava gəmisinin üzərindən milli mənsubiyyət və qeydiyyat nişanlarının çıxarılmasını təmin etməlidir. Bu şərtlər təmin edilməyənədək mülki hava gəmisi istismar oluna bilməz.

## 6. Xarici dövlətə mənsub mülki hava gəmilərinin dövlət uçotuna alınması

6.1. Xarici dövlətə mənsub mülki hava gəmisinin dövlət uçotuna alınması üçün ərizəçi qismində hava gəmisinin istismarçısı və ya onun səlahiyyətli nümayəndəsi aşağıdakı məlumatlar və sənədlər əlavə olunmuş ərizəni Agentliyə təqdim etməlidir:

6.1.1. istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti;
6.1.2. qeydiyyat sertifikatının surəti;
6.1.3. istismarçı sertifikatının surəti;
6.1.4. uçuşa yararlılıq sertifikatının surəti;
6.1.5. hava gəmisindən istifadə məqsədi;
6.1.6. Qanunun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənəd.

6.2. Bu Qaydanın 6.1-ci bəndində nəzərdə tutulmuş sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar hava gəmisinin istismarçısından tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi hava gəmisinin istismarçısının razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya hava gəmisinin istismarçısı tərəfindən təmin edilir.

6.3. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkarlandıqda (bu Qaydanın 6.2-ci bəndi nəzərə alınmaqla), ərizəyə baxılması bu Qaydanın 3.8-ci bəndi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

6.4. Agentlik tərəfindən qeydiyyata alındığı tarixdən 10 (on) gün müddətində ərizəyə baxılaraq xarici dövlətə mənsub hava gəmisinin dövlət uçotuna alınması və ya alınmasından imtina barədə qərar qəbul edilir. Xarici dövlətə mənsub mülki hava gəmisinin dövlət uçotuna alınması haqqında qərar qəbul edildikdə Agentlik tərəfindən bu Qaydanın 5 nömrəli əlavəsi ilə müəyyən olunmuş formada mülki hava gəmisinin uçuşa yararlılığı sertifikatının və ya hava gəmisindən istifadə hüququ verən sənədin qüvvədəolma müddətinin bitdiyi tarixədək (hansı hal daha tez baş verərsə) hüquqi qüvvəyə malik olan dövlət uçotuna alınma haqqında arayış verilir.

6.5. Xarici dövlətə mənsub olan mülki hava gəmisi dövlət uçotuna alındıqdan sonra bu Qaydanın 6.1-ci bəndində nəzərdə tutulmuş məlumatlarda və sənədlərdə hər hansı bir dəyişiklik baş verdikdə, xarici dövlətə mənsub hava gəmisinin dövlət uçotuna alınması haqqında arayışın yenidən rəsmiləşdirilməsi bu Qaydanın 3.11-ci bəndi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

6.6. Ərizəçi tərəfindən təqdim olunan sənədlər və məlumatlar bu Qaydanın 6.1.1- 6.1.6-cı yarımbəndlərinin tələblərinə uyğun olmadıqda Agentlik tərəfindən xarici dövlətə mənsub mülki hava gəmisinin dövlət uçotuna alınmasından imtina edilməsi haqqında qərar qəbul edilir və bu barədə 2 (iki) gün müddətində ərizəçiyə məlumat verilir.

6.7. Xarici dövlətə mənsub hava gəmisinin dövlət uçotuna alınması haqqında arayış xarici dövlətə mənsub mülki hava gəmisinin istismarçısının və ya onun qanunla müəyyən olunmuş qaydada səlahiyyət verilmiş nümayəndəsinin ərizəsi əsasında, həmçinin bu Qaydanın 8.1-ci bəndi ilə müəyyən olunmuş hallarda Agentlik tərəfindən ləğv edilir.

### 7. Sənədlərin verilməsindən imtina

7.1. Bu Qayda ilə müəyyən olunmuş qeydiyyat sertifikatı, dövlət reyestrindən çıxarılma haqqında çıxarış və xarici dövlətə mənsub hava gəmisinin dövlət uçotuna alınması haqqında sənədlərin (bundan sonra – sənəd) verilməsinə dair imtina aşağıdakı hallarda həyata keçirilir:

7.1.1. ərizədə və ona əlavə olunmuş sənədlərdə normativ hüquqi aktlara uyğun olmayan məlumatlar təqdim edildikdə;

7.1.2. ərizəçi sənədin verilməsi şərtlərini yerinə yetirmədikdə.

7.2. Sənədin verilməsindən imtina haqqında inzibati akt imtina hallarına istinad edilməklə əsaslandırılmalıdır.

### 8. Mülki hava gəmisinin mülkiyyətçisinin və ya istismarçısının məsuliyyəti

8.1. Mülki hava gəmisinin mülkiyyətçisi və ya istismarçısı tərəfindən bu Qayda ilə müəyyən edilmiş tələblərə riayət edilmədiyi, həmçinin məlumatlarla bağlı təhrif olunma halı aşkarlandıqda, Agentlik həmin pozuntular aradan qaldırılanadək qeydiyyat sertifikatının və ya xarici dövlətə mənsub mülki hava gəmisinin dövlət uçotuna alınması haqqında arayışın "Doc 10142, hava gəmilərinin qeydiyyatı və qeydiyyatının ləğvi üzrə Təlimat"a uyğun olaraq hüquqi qüvvəsini məhdudlaşdırmaq və ya dayandırmaq hüququna malikdir. Həmin müddətdə müvafiq pozuntu aradan qaldırılmadıqda, qeydiyyat sertifikatı və ya xarici dövlətə mənsub mülki hava gəmisinin dövlət uçotuna alınması haqqında arayış ləğv edilir. Belə hallarda Agentliyin qərarına əsasən qeydiyyat sertifikatının və ya xarici dövlətə mənsub mülki hava gəmisinin dövlət uçotuna alınması haqqında arayışın sahibi tərəfindən öz səlahiyyətlərindən istifadə edilməsinə yol verilmir.

8.2. Qeydiyyat sertifikatının və ya xarici dövlətə mənsub hava gəmisinin dövlət uçotuna alınması haqqında arayışın hüquqi qüvvəsi dayandırıldıqda və ya ləğv edildikdə sertifikatın, yaxud arayışın sahibi onları dərhal Agentliyə qaytarmalıdır.

8.3. Bu Qaydaya uyğun olaraq qəbul edilmiş qərarlardan və ya vəzifəli şəxslərin hərəkətindən (hərəkətsizliyindən) inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

### 9. Dövlət aviasiyasına aid hava gəmilərinin dövlət qeydiyyatının aparılması

9.1. İstismarçı dövlət orqanı (qurumu) dövlət aviasiyasına aid hava gəmisini istismara qəbul etdikdən sonra 10 (on) iş günü müddətində həmin hava gəmisinin dövlət qeydiyyatı ilə bağlı Nazirliyə müraciət edir.

9.2. Aşağıdakı hallarda dövlət aviasiyasına aid hava gəmiləri Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınır:

9.2.1. hava gəmisi Azərbaycan Respublikasının dövlət mülkiyyətində olduqda;

9.2.2. hava gəmisi xarici dövlətdə qeydiyyatda olmadıqda.

9.3. Dövlət aviasiyasına aid hava gəmisinin dövlət qeydiyyatına alınması üçün aidiyyəti dövlət orqanı (qurumu) tərəfindən aşağıdakı məlumatlar və sənədlər əlavə olunmuş rəsmi məktubla Nazirliyə müraciət edilir:

9.3.1. hava gəmisi üzərində mülkiyyət hüququnu təsdiq edən sənədin notarial surəti;

9.3.2. hava gəmisinin təsnifatı, təyinatı, istehsalçısı, növü, modeli, zavod nömrəsi, maksimal qalxma kütləsi və istehsal tarixi;

9.3.3. hava gəmisinin mühərriklərinin növü, modeli, sayı və zavod nömrəsi;

9.3.4. hava gəmisindən istifadə məqsədi;

9.3.5. hava gəmisinin digər dövlətdə qeydiyyatdan çıxarılmasını və ya əvvəl heç bir dövlətdə qeydiyyatda olmadığını təsdiq edən sənəd;

9.3.6. hava gəmisi əvvəl digər dövlətdə qeydiyyatda olduqda, əvvəlki milli mənsubiyyət və qeydiyyat nişanları;

9.3.7. hava gəmisinin əmlak qismində sığortalanmasını təsdiq edən sənəd (yükdaşıma təyinatlı hava gəmisinə münasibətdə).

9.4. Bu Qaydanın 9.3-cü bəndində nəzərdə tutulmuş məlumatlarda və sənədlərdə çatışmazlıqlar, o cümlədən imtina üçün əsaslar olmadıqda müraciətə və ona əlavə olunmuş sənədlərə Nazirlik tərəfindən qeydiyyata alındığı tarixdən 10 (on) gün müddətində baxılaraq qeydiyyata alınma haqqında qərar qəbul edilir.

9.5. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə Nazirlik tərəfindən bu barədə aidiyyəti dövlət orqanına (qurumuna) 3 (üç) gündən gec olmayaraq məlumat verilir. Aidiyyəti dövlət orqanı (qurumu) həmin çatışmazlıqları məlumatı aldığı tarixdən 10 (on) gün müddətində aradan qaldırmalıdır. Belə hallarda hava gəmisinin qeydiyyatı ilə bağlı müraciətə baxılması üzrə müddətin axımı dayandırılır və dayandırılmış müddət bu Qaydanın 9.4-cü bəndində nəzərdə tutulmuş müddətə daxil edilmir. Aidiyyəti dövlət orqanı (qurumu) təqdim etdiyi sənədlərdəki çatışmazlıqları aradan qaldırdıqdan sonra müddətin axımı bərpa olunaraq sənədlərə bu Qaydanın 9.4-cü bəndində nəzərdə tutulmuş qaydada baxılır. Aidiyyəti dövlət orqanı (qurumu) çatışmazlıqları 10 (on) gün müddətində aradan qaldırmadıqda, müraciətin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 2 (iki) gün müddətində həmin dövlət orqanına (qurumuna) təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

9.6. Nazirlik tərəfindən bu Qaydanın 9.4-cü bəndinin tələblərinə uyğun olaraq qeydiyyata alınma haqqında qərar qəbul edildikdə 2 (iki) iş günü müddətində həmin qərar aidiyyəti dövlət orqanına (qurumuna) təqdim edilir.

9.7. Müraciət bu Qaydanın 9.2-ci və 9.3-cü bəndlərinin tələblərinə uyğun olmadıqda, həmçinin aşkar edilmiş çatışmazlıqlar bu Qaydanın 9.5-ci bəndində nəzərdə tutulmuş müddətdə aradan qaldırılmadıqda, Nazirlik tərəfindən hava gəmisinin dövlət qeydiyyatına alınmasından imtina edilməsi haqqında qərar qəbul olunur və 2 (iki) gün müddətində aidiyyəti dövlət orqanına (qurumuna) təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

9.8. Hava gəmisi qeydiyyata alındıqdan sonra bu Qaydanın 9.3-cü bəndində nəzərdə tutulmuş məlumatlarda və sənədlərdə hər hansı bir dəyişiklik olduqda aidiyyəti dövlət orqanı (qurumu) tərəfindən həmin əsasların yarandığı gündən 5 (beş) gün müddətində bu Qaydanın 9.3-cü bəndi nəzərə alınmaqla Nazirliyə müraciət edilir.

Müraciətə dəyişiklik əsaslarını təsdiq edən sənədlər əlavə olunur. Müraciətə daxil olduğu gündən 10 (on) gün müddətində Nazirlik tərəfindən hava gəmisinin qeydiyyat məlumatlarında dəyişiklik edilir.

9.9. Dövlət eksperimental aviasiyasına aid hava gəmilərinin dövlət qeydiyyatına alınması bu hissəyə uyğun olaraq Nazirlik tərəfindən həyata keçirilir.

**“Hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və çıxarılması Qaydası”na**

**1 nömrəli əlavə**

**Hava gəmilərinin təsnifatı**




1. Ümumilikdə “çərpələng-aerostat” adlandırılır.
2. “Üzgəcli” və ya “qayıq” sözü əlavə edilə bilər.
3. Xizək tipli eniş aparatları ilə təchiz edilmiş hava gəmiləri daxildir (bu halda “yer” əvəzinə “xizək” ilə əvəz edin).
4. Sxemin tamlığı üçün.
5. Cədvəl üzrə:
5.1. aerostat - güc qurğusu ilə hərəkətə gətirilməyən havadan yüngül hava gəmisi;
5.2. dirijabl - güc qurğusu ilə hərəkətə gətirilən havadan yüngül hava gəmisi;

5.3. havadan ağır hava gəmisi - əsasən aerodinamik qaldırıcı qüvvəsi hesabına havada qalan hava gəmisi;

5.4. havadan yüngül hava gəmisi - öz qaldırıcı qüvvəsi hesabına havada qalan hava gəmisi;

5.5. ornitopter - əsasən havanın yelpikləmə hərəkəti verilən müstəvilərlə reaksiyası hesabına uçuşda saxlanılan havadan ağır mülki hava gəmisi;

5.6. planer - qaldırıcı qüvvəsi əsasən uçuşun verilmiş şəraitində hərəkətsiz qalan səthlərdəki aerodinamik reaksiyalar nəticəsində yaranan, güc qurğusu ilə hərəkətə gətirilməyən havadan ağır mülki hava gəmisi;

5.7. rotorlu uçuş aparatı - havanın bir və ya bir neçə rotorla reaksiyaları hesabına uçuşda saxlanılan və güc qurğusu ilə hərəkətə gətirilən havadan ağır hava gəmisi;

5.8. təyyarə - qaldırıcı qüvvəsi uçuş zamanı, əsasən uçuşun müvafiq şəraitində hərəkətsiz qalan səthlərdə aerodinamik reaksiyalar hesabına yaranan güc qurğusu ilə hərəkətə gətirilən havadan ağır hava gəmisi.

6. Bortunda pilot olmadan istismar edilməsi nəzərdə tutulan hava gəmisi pilotsuz hava gəmisi kimi təsnifatlandırılır. Pilotsuz hava gəmilərinə pilotsuz sərbəst aerostatlar və məsafədən idarə edilən hava gəmiləri aiddir.

**“Hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və çıxarılması Qaydası”na**

**2 nömrəli əlavə**

**Qeydiyyat sertifikatı**

| | | |
|---|---|---|
| | **AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ**<br><br>**MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT OF THE REPUBLIC OF AZERBAIJAN STATE CIVIL AVIATION AGENCY**<br><br>**QEYDİYYAT SERTİFİKATI**<br>**CERTIFICATE OF REGISTRATION** | **№** ____ |
| 1. Milli mənsubiyyət nişanı və qeydiyyat nişanı<br>*Nationality mark and registration mark*<br>______________ | *2.* İstehsalçı və hava gəmisinin təyinatı<br>*Manufacturer and manufacturer’s designation of aircraft*<br>______________________ | 3. Hava gəmisinin seriya nömrəsi<br>*Aircraft serial no.*<br>______________ |

4. Mülkiyyətçinin adı / *Name of owner* ______________________________________________

5. Mülkiyyətçinin ünvanı / Address of owner ________________________________________

6. Bununla təsdiq edilir ki, bu mülki hava gəmisi/mülki eksperimental aviasiyaya aid hava gəmisi “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyaya və “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikası mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilmişdir.

*It is hereby certified that the above described aircraft has been duly entered on the state civil aircraft register of the Republic of Azerbaijan in accordance with the “Convention on International Civil Aviation” dated December 7, 1944 and with the Law of the Republic of Azerbaijan “On Aviation”.*

**M.Y. / *S.P.***

Səlahiyyətli şəxs / *Authorised person*: ________________________________
(soyadı, adı, atasının adı, vəzifəsi) / (*name, position)*

İmza / *Signature* ___________

Verilmə tarixi / *Date of issue* ______________

**"Hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və çıxarılması Qaydası"na**

**3 nömrəli əlavə**

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ**
**DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ**

**Mülki hava gəmisinin/mülki eksperimental aviasiyaya aid hava gəmisinin ipotekasının qeydiyyata alınması ilə əlaqədar mülki hava gəmilərinin dövlət reyestrindən çıxarış**

№___

*Tarix*____

İpoteka müqaviləsi üzrə ipoteka qoyan şəxs

______________________________________________
hüquqi şəxsin tam adı (fiziki şəxsin soyadı, adı, atasının adı), ünvanı

Hava gəmisinin növü, istehsalçısı, qeydiyyat nişanı, seriya nömrəsi _____________

______________________________________________

İpoteka müqaviləsi üzrə ipoteka saxlayan şəxs

______________________________________________
hüquqi şəxsin tam adı (fiziki şəxsin soyadı, adı, atasının adı), ünvanı

______________________________________________

İpoteka müqaviləsinin nömrəsi, tarixi və yeri ______________________________

İpoteka müqaviləsinin qüvvədəolma müddəti ____________________________

İpoteka müqaviləsinin qeydiyyat yeri, tarixi və nömrəsi ______________________

Səlahiyyətli şəxs _____________________________
(soyadı, adı, atasının adı, vəzifəsi)

İmza _____________ M.Y.

**“Hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və çıxarılması Qaydası”na**

**4 nömrəli əlavə**

**Dövlət reyestrindən çıxarılma haqqında çıxarış**

| | | |
|---|---|---|
| | **AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ**<br><br>**MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT OF THE REPUBLIC OF AZERBAIJAN STATE CIVIL AVIATION AGENCY**<br><br>**DÖVLƏT REYESTRİNDƏN ÇIXARILMA HAQQINDA ÇIXARIŞ**<br>**CERTIFICATE OF DEREGISTRATION** | **№ ____** |

| | | |
|---|---|---|
| 1. Milli mənsubiyyət nişanı və qeydiyyat nişanı / *Nationality mark and registration mark*<br>__________ | 2. İstehsalçı və hava gəmisinin təyinatı / *Manufacturer and manufacturer’s designation of aircraft*<br>______________ | 3. Hava gəmisinin seriya nömrəsi / *Aircraft serial no.*<br>_________ |

*4a.* Verilir / *Issued to* __________________________________________________
(sertifikat sahibinin adı / name of certificate holder)

Qeydiyyatın əsası / *Basis on registration (check one)*

- ☐ hava gəmisi üzərində mülkiyyət / *ownership of aircraft*
- ☐ hava gəmisinin istismarçısı / *operator of aircraft*
- ☐ digər / *other (explain)*

4b. Sertifikat sahibinin ünvanı / *Address of certificate holder*

____________________________________
(reyestrdən çıxarılma anında / at the time of deregistration)

5. Mülkiyyətçi sertifikat sahibindən fərqlidirsə soyadı, adı və əlaqə məlumatları / *Name and contact information of owner, if different from certificate holder*

____________________________________
(reyestrdən çıxarılma anında / at the time of deregistration)

6. Bununla təsdiq edilir ki, bu hava gəmisi ___________ tarixində Azərbaycan Respublikası mülki hava gəmilərinin dövlət reyestrindən çıxarılmış və hava gəmisinin qeydiyyat sertifikatı hüquqi qüvvəsini itirmişdir.

*It is hereby certified that the above described aircraft has been duly removed from the state register of civil aircrafts of the Republic of Azerbaijan on _________ and the Certificate of Registration has been cancelled.*

| |
|---|
| 6a. Reyestrdən çıxarılmanın səbəbi (və ya səbəbləri) (məlumdursa) / *Reason(s) for deregistration, if known:* ____________________ |
| Səlahiyyətli şəxs / *Authorised person* ____________________<br>(soyadı, adı, atasının adı, vəzifəsi / name, position)<br><br>İmza / *Signature* ____________________ **M.Y. / *S.P.***<br><br>Verilmə tarixi / *Date of issue* ___________ |

**"Hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və çıxarılması Qaydası"na**

**5 nömrəli əlavə**

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ**
**DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ**

**Xarici dövlətə mənsub hava gəmisinin dövlət uçotuna alınması haqqında**

**ARAYIŞ**

**№**

Bununla aşağıdakı hava gəmisinin Dövlət Mülki Aviasiya Agentliyi tərəfindən dövlət uçotuna alınması təsdiq edilir:

1. Hava gəmisinin növü
2. Hava gəmisinin seriya nömrəsi
3. Hava gəmisini qeydiyyata almış qurum
4. Hava gəmisinin qeydiyyat nişanı
5. Hava gəmisinin uçuşa yararlılıq sertifikatının qüvvədəolma müddəti
6. Hava gəmisinin mülkiyyətçisi
7. Hava gəmisinin istismarçısı
8. Hava gəmisinin istismarını tənzimləyən müqavilənin nömrəsi, tarixi və qüvvədəolma müddəti
9. Hava gəmisinin yerləşdiyi baza

Hava gəmisinin uçuşları Azərbaycan Respublikasının Dövlət Bayrağı altında və çağırış siqnalları ilə yerinə yetiriləcəkdir.

Arayışın verilmə tarixi

Etibarlıdır

Səlahiyyətli şəxs ___________________
(soyadı, adı, atasının adı, vəzifəsi)

İmza: __________________ M.Y.

_______________________________________________